## *PSİXOLOGİYA, YAŞ FİZİOLOGİYASI VƏ İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*

***Elmira Mahmud qızı Kərimova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*

# AUTİZMLİ UŞAQLARIN REABİLİTASİYASININ SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ

***Эльмира Махмуд гызы Керимова***
*доктор философии по педагогике,*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ РЕАБИЛИТАЦИИ ДЕТЕЙ С АУТИЗМОМ

***Elmira Mahmud Karimova***
*doctor of philosophy in pedagogy,*
*leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan*

# SOCIO-PSYCHOLOGICAL ASPECTS OF REHABILITATION OF CHILDREN WITH AUTISM

**Xülasə:** Autizm spektrin pozulması olan uşaqların ən əsas problemi affektiv problemlər və dinamik və dəyişən ətraf mühitlə aktiv əlaqələr qurmaqdakı çətinliklərdir. Bu problem və çətinlikləri uşaqlar özləri həll edə bilmədiyindən onlar ətraf mühitlə sabitliyi qorumağ üçün qapalı olur, özlərinə məxsus stereotip davranışlara əl atırlar. Məqalə erkən uşaqlıq autizmi olan uşaqların kompleks tibbi-sosial və psixoloji-pedaqoji reabilitasiyası zamanı həyata keçirilən sosial işə həsr edilmişdir.
***Açar sözlər:*** *autizm, erkən uşaqlıq autizmi, autizm spektrin pozulmaları, sosial iş, psixososial yardım, uyğunlaşma, reabilitasiya*

**Резюме:** Основные проблемы детей с расстройствами аутистического спектра - это аффективные проблемы и трудности в установлении активных отношений с динамичной и меняющейся средой. Поскольку дети не могут решить эти проблемы и трудности самостоятельно, они становятся необщительными, а для поддержания стабильности с окружающей средой проявляют стереотипное поведение. Статья посвящена деятельности специалиста по социальной работе, осуществляемой при комплексной медико-социальной и психолого-педагогической реабилитации детей, имеющих ранний детский аутизм.
***Ключевые слова:*** *аутизм, ранний детский аутизм, расстройства аутистического спектра, социальная работа, психосоциальная помощь, адаптация, коррекция, реабилитация*

**Summary:** The main problems of children with autism spectrum disorders are affective problems and difficulties in establishing active relationships with a dynamic and changing environment. Because children cannot solve these problems and difficulties on their own, they become closed to maintaining stability with the environment and engage in their own stereotypical behaviors. The article is devoted to the activities of a specialist in social work carried out during the complex medical-social and psychological-pedagogical rehabilitation of children with early childhood autism.
***Key words:*** *autism, early childhood autism, autism spectrum disorders, social work, psychosocial assistance, adaptation, correction, rehabilitation*

Son illərdə 2 aprel autizm problemlərinin həllinə həsr olunmuş bir ümumdünya günü kimi qeyd olunur. ÜST-na görə, son yeddi ildə hər il autizmli uşaqların sayı təxminən 13% artmışdır. Bu, olduqca yüksək göstəricilərdir.

Hazırda dünyada uşaqlıq autizmi psixi inkişafın pozulması kimi qəbul edilir. Hal-hazırda mütəxəssislərin diqqət mərkəzində autizmli uşağın fərdi koqnitiv qabiliyyətlərinin çatışmazlığı deyil, onun ətraf aləmlə və ilk növbədə onun yaxınları ilə qarşılıqlı əlaqə formalarının inkişafının ümumi qanunauyğunluqlarının pozulmasıdır. Uşaqlıq autizminin mahiyyətini dərk etməkdə irəliləyiş yalnız uşağın koqnitiv və affektiv inkişafının vahidliyini və məntiqliyini dərk edərək mümkündür.

Qeyd etmək lazımdır ki, autizmin klinik və psixoloji təzahürləri, autizmli şəxslərin korreksi-yası və reabilitasiyası barədə məlumatların miqdarı həm adi insanlar üçün, həm də bu problemlərin həlli ilə maraqlananlar üçün tələb olunan həcm və keyfiyyətdə deyil. Cəmiyyət bütövlükdə autizm və onun xüsusiyyətlərindən tam xəbərdar deyil və çox vaxt bu pozulmaları adaptasiyanın, davranış pozulmalarının və tərbiyədəki qüsurların təzahürü kimi qəbul edir.

Vəziyyəti autizm haqqında çox sayda miflərin olması (əhalinin bir hissəsi bu pozulmanın yoluxucu xəstəliklər kimi keçə biləcəyinə inanır, digər hissəsi autizmli insanları ümumiyyətlə ictimai təhlükəli hesab edir), maarifləndirmənin aşağı səviyyədə olması da ağırlaşdırır. Buna görə də sağlam insanlar autizmli uşaqlarla necə davranacaqlarını, məhsuldar və qarşılıqlı əlaqə necə qurmağı başa düşmədikləri üçün onlarla son dərəcə istəksiz əlaqə qururlar.

Autizm spektrin pozulması olan uşaqların ən əsas problemi affektiv problemlər və dinamik və dəyişən ətraf mühitlə aktiv əlaqələr qurmaqdakı çətinliklərdir. Bu problem və çətinlikləri uşaqlar özləri həll edə bilmədiyindən onlar ətraf mühitlə sabitliyi qorumaq üçün qapalı olur, özlərinə məxsus stereotip davranışlara əl atırlar.

Autizmli uşaqlarda psixi inkişafın dərəcəsi xeyli fərqlənə bilər. Autizmli uşağın intellektual inkişafının öz xüsusiyyətləri vardır. Bəzi tədqiqatçılar bu uşaqların əksəriyyətinin əqli cəhətdən geri qaldığını, bəzilərinin isə intellectual cəhətdən normaya yaxın inkişaf etdiyini deyir. Hesab edilir ki, koqnitiv pozulmalar intellektual funksiyalarının formalaşmasına əhəmiyyətli dərəcədə mane olan davranışının bir nəticəsidir.

Autizmli uşaq həm intellektual cəhətdən geri qalmış, həm də yüksək intelektual inkişafa malik ola bilər (çox vaxt parsial istedadlı), lakin onlar ən sadə gündəlik və sosial bacarıqlardan məhrum olurlar. Belə dizontogenez növünü V.V. Lebedinski (1985) təhrif olunmuş inkişaf növü adlandırır.

Cəmiyyətin humanistləşməsi şəraitində əvvəllər inkişaf problemləri olan və təlimə cəlb olunmayan uşaqlar indi ümumi və ya xüsusi təhsil sisteminə daxil edilirlər. Bu baxımdan autizm spektrin pozulmaları olan uşaqların müasir təhsil sisteminə daxil edilməsi vacib məsələlərdən biridir.

Həm ümumtəhsil, həm də xüsusi (korreksiya) məktəblərinin mütəxəssisləri autizmli uşaqlarda psixi inkişaf pozulmaları ilə müəyyən edilən çətinliklərlə üzləşirlər. Təlimin başlanğıcında əsas olanlar, autizmli uşağın özünün və sinif yoldaşlarının təlim prosesinin təşkilinə mane olan davranış problemləri və ünsiyyət çətinlikləridir. Bu cür uşaqlar üçün təhsil aparıcı bir fəaliyyətə çevrilmir. Autizmli uşaqların müasir təhsil sisteminə uyğunlaşması və sığması çətindir. Zamanında diaqnoz qoyulmadan və adekvat kliniki, psixoloji və pedaqoji korreksiya edilmədən bu uşaqların əksəriyyəti tədris proqramının mənimsəməsində ciddi çətinliklərlə qarşılaşır və cəmiyyətdəki həyata uyğunlaşmır. Və əksinə, erkən hərtərəfli diaqnostika, korreksiya işlərinə vaxtında başlanılarsa, autizmli uşaqların əksəriyyəti ümumtəhsil (inklüziv) və ya xüsusi (korreksiya) məktəbində təhsilə müvəffəqiyyətlə hazırlana bilər və çox vaxt müxtəlif sahələrdə potensial istedadlarını inkişaf etdirə bilərlər.

Autizmli uşaqla korreksiya işi kompleks şəkildə (psixiatr, nevropatoloq, psixoloq, korreksiya pedaqoqu, loqoped, musiqi işçisi və əlbəttə ki, valideynlər) aparılsa nəticələr daha uğurlu olacaqdır. Mütəxəssislər tərəfindən formalaşdırılmış bacarıqlar evdə valideynlərin gündəlik sistematik işində möhkəmləndirilməlidir.

Korreksiya işini təşkil edərkən müvafiq prinsiplərə riayət etmək məsləhət görülür:

– korreksiyada kompleks psixoloji, pedaqoji və tibbi-sosial yanaşmanın həyata keçirilməsi;

– göstərilən yardımın ixtisaslaşdırılmış olması ilə birlikdə korreksiya prosesinin inteqrativ istiqamətləndirilməsi;

– bütün yaş mərhələlərində korreksiya işlərinin davamlılığı və varisliyi;

– metodoloji yanaşma seçərkən autizmli uşağın maraqlarının nəzərə alınması;

– tədricən fərdi iş formasından qrup iş formalarına keçid;

– autizmli uşağın ailəsi ilə sistematik şəkildə aktiv işin aparılması.

Kompleks yardımın göstərilməsinin məqsədi autizmli uşağı adekvat təhsil mühitinə və cəmiyyətə inteqrasiya etməkdir. Bu isə onun sosial reabilitasiyası prosesində mümkün ola bilər. Əksər müasir alimlər və praktiklər hesab edir ki, korreksiya işində əsas səylər həyati bacarıqların formalaşdırılmasına yönəldilməlidir. Buna görə təklif olunan metodlar autizmli uşağın spesifik xüsusiyyətlərinə əsaslanaraq müəyyən bir fəaliyyətə yiyələnməsini asanlaşdırmağa və davranış hərəkətlərini öyrətməyə əsaslanır. Burada mövcud və artıq ənənəvi olmuş metodları qeyd etmək olar: xoldinq terapiyası ("gücləndirilmiş toxunma"); bixeviorist (davranış) yanaşma; qrup terapiyası; seçim metodu; evritmiya (musiqi ilə dəstəklənən kommunikativ terapiya); hipoterapiya (at autizmli uşağın daxili dünyası ilə ətraf gerçəklik arasında bir əlaqə kimi).

Autizmli şəxslərin həyat keyfiyyətinin sosial göstəriciləri hər bir insanın həyatının keyfiyyətini müəyyən edən amillərdən seçilmir. Bu göstəricilər olduqca müxtəlifdir və ümumilikdə aşağıdakılardan ibarətdir:

– sağlamlıq (sağlam həyat tərzi qayd-alarının bilməsi və onların tətbiqi);

– maddi rifah;

– peşə təhsili, iş, yaradıcılıq (həyata və peşəyə praktik hazırlıq);

– ünsiyyətlilik (ailə və qohumluq münasibətlərini və müstəqil ünsiyyəti yaratmaq və qorumaq bacarığı);

– sosial təminat (ictimai yerlərdə, öz evində, ekstremal vəziyyətlərdə təhlükəsizlik qaydalarını bilmək və həyata keçirmək);

– ictimai həyatda iştirak etmək, cəmiyyətdə öz yerinin müəyyənləşdirilməsi (özünün sosial rolunun fərqində olması və müxtəlif insanlar qrupları ilə qarşılıqlı əlaqədə olaraq bu rolunu həyata keçirməyə hazır olması);

– əxlaqi prinsiplər (öz hisslərini və digər insanların duyğularını başa düşmək, hisslərini idarə edərək şifahi və qeyri-şifahi şəkildə ifadə etmək bacarığı).

Autizmli uşaqların həyat keyfiyyətinin yaxşılaşdırılması və uğurlu social reabilitasiyası üçün mühüm yer psixososial işə ayrılmalıdır. Mahiyyət etibarilə bu iş inteqrativ və kompleks xarakter daşıyır və uşağın cəmiyyətdə sosiallaşmasına və potensial imkanlarını açmağa kömək edir. Məlumdur ki, respublikada autizmli uşaq və yeniyetmənin (əsasən intellektində problemi olan) xüsusi (korreksiya) təhsil müəssisələrində təhsil almaq imkanı var, ağır və cəmləşmiş pozulmaları olan autizmli uşaqlar isə səhiyyə və əhalinin sosial müdafiəsi müəssisələrində yerləşdirilə bilər.

Autizmli uşaqların sosial reabilitasiya prosesində əsas tibbi-pedaqoji və sosial-psixoloji dəstək hesab edilməlidir. Xüsusi məktəbdə bu işi xüsusi təlim keçmiş sosial iş mütəxəssisi apara bilər. Autizmli uşaqlar ilə sosial iş üzrə mütəxəssisin fəaliyyətində aşağıdakı sahələr ayırd edilə bilər:

– erkən uşaqlıq autizmi olan uşağı böyüdən ailəyə sosial dəstək;

– belə bir uşaqla məşğul olan valideynlər və digər mütəxəssislərlə profilaktik psixososial işin istiqamətlərini müəyyənləşdirilməsi ("psixososial" anlayışı həm sosial, həm də psixoloji problemləri və qarşılıqlı təsir formalarını və bir-birini tamamlayan, problemlərin həlli yollarını və vasitələrini göstərən proses kimi müəyyən edilir);

– autizmli uşaqla fərdi iş.

Bu baxımdan qeyd etmək lazımdır ki, uşaqların tərbiyəsində əsas məqam özünəxidmət vərdişlərinə yiyələndirmək; uşağın həyatını elə xüsusi təşkil etmək ki, gündəlik ritualların bütün elementləri hərtərəfli düşünülmüş olsun; uşağa oyuna hazırlaşma və oyundan çıxma zamanı davranış qaydalarını öyrətmək və s., reabilitasiya mərkəzlərində valideynlərlə tez-tez görüşlər keçirib uşağın tərbiyəsini necə optimallaşdırmaq təcrübələri ilə bölüşmək, emosional dəstək və sosial müşayiət yollarını göstərmək lazımdır.

Erkən uşaqlıq autizmi olan uşaqların reabilitasiyasında əsas şey, tibbi korreksiyadan əlavə olaraq, bütün mütəxəssislərin səylərinin əlaqələndirilməsi, inkişaf dinamikasını yaxşılaşdırmaq üçün uşağın vəziyyətinin birgə təhlili və

aydınlaşdırılması, uşağın problemlərinin həllində iştirak edən mütəxəssislərin hamısının vahid taktikasının dəqiqləşdirilməsi olmalıdır.

Psixososial dəstəyin göstərilməsi üzrə iş həm fərdi yönəldilmiş, həm də sistemləşdirilmiş və məqsədyönlü olmalıdır. Psixososial işin əsas hissəsi uşaqla məktəbdə və sinifdənkənar aparılan məşğələlərdən ibarətdir. Sinifdə uşağın sosial adaptasiyası, ünsiyyət bacarıqlarının inkişafı, təlimə hazırlığı, fərdi təhsil proqramları həyata keçirilməsi və hərtərəfli inkişafı üçün şərait yaradılmalıdır; sinifdənkənar həyatda isə uşağı müşayiət etməli, vaxtında tibbi yardımla təmin etməli, ailə üzvlərini çətin vəziyyətdə autizmli uşaqlarla işləməyə hazırlamaq vacibdir.

Ətraf aləmlə qarşılıqlı emosional əlaqələrin inkişaf etdirilməsi autizmli uşaqlarda olan neqativizmi, aqressiv və autoaqressiv meylləri azaltmağa imkan verir. Autizmli uşaqda ünsiyyətin və kommunikasiyanın pozulması onu ağrılı təmaslardan qoruyan bir autistik sərhədin meydana gəlməsi ilə əlaqələndirilir. Nəticədə autizmli uşaqda həssaslıq artır və, təbii olaraq, onda qoruyucu hiperkompensasiya formaları – stereotiplik və autostimulyasiya inkişaf edir.

Affektiv sahənin inkişaf etdirilməsi sosial reabilitasiyanın ən vacib mərhələlərindən biridir. K.S.Lebedinskaya və O.S.Nikolskaya belə uşaqlarla affektiv əlaqələrin bərpasına dair vahid yanaşma qaydalarını formalaşdırıblar. Bunlar aşağıdakılardır:

– əvvəlcədən uşağa təzyiq və birbaşa uşağa ünvanlanma olmamalıdır;

– ilk təmaslar uşaq üçün adekvat səviyyədə və onun mövcud fəaliyyəti çərçivəsində təşkil olunmalıdır;

– hər bir situasiyada öz pozitivliyinizi qorumalısınız;

– uşağın adi zövqlərini şaxələndirməlisiniz, uşaqları öz sevincinizlə və müsbət münasibətinizlə fəaliyyətə şirnikləndirməlisiniz;

– əlaqə formalarını mürəkkəbləşdirmək yalnız uşağın təmasa olan ehtiyacını möhkəmləndirəndən sonra və məşğələni aparanın müsbət affektiv mərkəzə çevrildiyindən sonra başlamaq mümkündür;

– mürəkkəbləşmə yalnız möhkəmləndirilmiş mövcud formaların strukturuna yeni detalların daxil edilməsi ilə mümkündür;

– affektiv əlaqə qurulduqda uşaq daha etibarlı olur və bu zaman onu yaxınları və b. ilə qarşıdurmadan qorumaq vacibdir;

– təmas qurulduqca uşağın diqqəti tədricən prosesə yönəldilir və bu da müsbət nəticələrin əldə edilməsinə inam yaradır.

Son illərdə autizmli uşaqlarla aparılan sosial işə dair təcrübələrin, xüsusi pedaqogikada və psixologiyada isə tədqiqatların sayı artmaqdadır. Lakin yaddan çıxarmamalıyıq ki, autizm spektrinin pozulması olan uşaqlar sağlam uşaqlara şamil olan qaydalara uyğunlaşdırılmamalıdır – onlar öz şərtləri əsasında cəmiyyətə inteqrasiya olunmalıdırlar. Unutmamalıyıq ki, autizmli uşaqlar ilə işləmək mürəkkəb və uzun bir prosesdir, və bu prosesdə tərəqqinin hər bir addımı dəyərlidir, çünki o, autizmli uşağın daha müstəqil və inamlı yaşamasına kömək edəcəkdir.

**Problemin aktuallığı**. Erkən uşaqlıq autizmi hazırda sırf klinik problem kimi qəbul edilmir. Müasir mənada, bu, psixi inkişafın pozulmasının xüsusi bir növü kimi qəbul edilir. Autizmin çoxsaylı təzahürlərinin aradan qaldırılmasında sosial-psixoloji və pedaqoji korreksiyanın rolu böyükdür. Müəllim və valideynlərdə bu məsələyə dair məlumat azlıq təşkil edir. Müəllif məqaləsi ilə bu sahədə olan boşluğu aradan qaldırmağa çalışıb.

**Problemin elmi yeniliyi**. Sosial reabilitasiya autizmli insanların və xüsusən də uşaqların ətraf mühitə uyğunlaşdırılmasına, müxtəlif psixoloji maneələrin aradan qaldırmasına, qarşılıqlı əlaqələrin qurulmasına yönəldilmişdir. Sosial reabilitasiya, həmçinin uşağın ümumi inkişafına müsbət təsir göstərir. Məqalədə autizmli uşaqlarla aparılan sosial reabilitasiya haqqında məlumat verilib.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə verilən məlumatlar və məsləhətlər sosial reabilitasiya işində nəzərə alına bilər.

**Ədəbiyyat:**

1. Баенская, Е.Р. Помощь в воспитании детей с особым эмоциональным развитием (ранний возраст). - Москва: Теревинф, - 2009. – 112 с.

2. Каган, В.Е. Аутизм у детей. - Ленинград: Медицина, - 1981. – 208 с.

3. Каган, В.Е. Преодоление: неконтактный ребенок в семье. – Санкт-Петербург: Фолиант, - 1996. – 158 с.

4. Лебединский, В.В. Нарушения психического развития у детей.- Москва: Изд-во МГУ, - 1985. – 223 с.

5. Лебединская, К.С. Дети с нарушением общения. / К.С.Лебединская, О.С.Никольская, Е.Р.Баенская, М.М.Либлинг. - Москва: Просвещение,- 1989. – 95 с.

6. Питерс Т. Аутизм: От теоретического понимания к педагогическому воздействию. - Москва: Гуманит. изд. центр ВЛАДОС, - 2003. – 192 с.

**E-mail**: ema.umudova@mail.ru

**Rəyçilər**: *ped.ü.fəls.dok., dos.* **M.S. Kazımov**,
*ped.ü.fəls.dok.* **S. İsgəndərova**